**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# GƏNCƏ-DAŞKƏSƏN SƏNAYE QOVŞAĞINDA TƏSƏRRÜFATIN ƏRAZİ TƏŞKİLİNİN İQTİSADİ-COĞRAFİ ASPEKTLƏRİ

İxtisas: 5401.01 – İqtisadi coğrafiya

Elm sahəsi: Coğrafiya

İddiaçı: **Firəngiz Rəfail qızı Bağırova**

Fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Gəncə Dövlət Universiteti "Coğrafiya" kafedrasında yerinə yetirilmişdir

Elmi rəhbər: coğrafiya elmləri doktoru, professor
**Zakir Namin oğlu Eminov**

Rəsmi opponentlər: coğrafiya elmləri doktoru, dosent
**Məlikməmməd Xanoğlan oğlu Məmmədov**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Vüqar Səttar oğlu Dərgahov**

coğrafiya üzrə fəlsəfə doktoru
**Xədicə Azər qızı Bədəlova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: coğrafiya elmləri doktoru, professor
**Çingiz Niyazi oğlu İsmayılov**

Dissertasiya şurasının elmi katibi: coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Sahilə Əbiş qızı Allahverdiyeva**

Elmi seminarın sədri: coğrafiya elmləri doktoru, dosent
**Aydın İsmayıl oğlu İbrahimov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müstəqillik dövründə aparılan iqtisadi islahatlar regionlarda təsərrüfat sahələrinin inkişafında böyük rol oynamışdır. Həyata keçirilmiş tədbirlər nəticəsində mövcud olan əksər istehsal və xidmət müəssisələrinin fəaliyyəti bərpa edilmiş, onlar texnikini-texnoloji cəhətdən yenidən qurulmuş, müasir tələblərə cavab verən məhsullar istehsalı təmin olunmuşdur.

Bununla yanaşı, yerli təbii-coğrafi şərait və ehtiyatlardan istifadə edilməsinə əsaslanan yeni təsərrüfat obyektləri, əhaliyə xidmət göstərən sosial-mədəni xidmət müəssisələri qurulmuşdur. Onlar əhalinin iş yerləri ilə təminatına, gəlirlərinin yüksəlməsinə, həyat səviyyəsinin yaxşılaşmasına müsbət təsir göstərir.

Ölkədə qeyri-neft sektorunun inkişafı, təsərrüfatın səmərəli ərazi təşkilinin təmin olunması üçün yeni istiqamətlər tətbiq olunur. Təsərrüfatın yerli sənaye məhsullarına olan tələbatının ödənilməsi üçün sənaye parkları, sənaye məhəllələri, xarici ölkələrin istehsal şirkətləri ilə birgə müəssisələr təşkil olunur. Onların fəaliyyəti üçün müasir avadanlıqlar, texniki və texnoloji vasitələr tətbiq olunur.

Təsərrüfatın səmərəli ərazi təşkili yollarından biri kimi tətbiq edilən sənaye qovşaqlarında məhsulun maya dəyərinin aşağı salınması, itkilərin azaldılması, kooperasiya əlaqələri əsasında maşınqayırma müəssisələrinin təşkili üçün əlverişli imkanlar mövcuddur. Sənaye qovşaqlarında infrastruktur şəbəkəsindən istifadə edilməsi, xammalların ardıcıl emalının təşkil edilməsi, yığma maşınqayırma müəssisələrində məhsul istehsalının təşkili Gəncə şəhərində də təsərrüfat strukturunun təkmilləşdirilməsinə şərait yarada bilər.

Gəncə-Daşkəsən sənaye qovşağı XX əsrin ortalarından başlayaraq əlvan metallurgiya xammallarının hasilatı və emalı müəssisələri şəbəkəsinin yaradılması ilə formalaşmağa başlamışdır. Eyni zamanda ətraf rayonlarda becərilən kənd təsərrüfatı məhsullarının emalı üçün də şəhərdə çoxsaylı sənaye obyektləri fəaliyyət göstərmişdir.

Lakin keçid dövrünün çətinlikləri ilə əlaqədar bu müəssisələrin xammallar ilə təminatında çətinliklər yaranmışdır. Daşkəsəndə alunit hasilatının dayanması Alüminium zavodunun fəaliyyətinə mənfi təsir göstərmişdir. Elektrik enerjisi ilə təminatda olan çətinliklər və baha başa gəlməsi mövcud müəssisələrlə yanaşı, yeni tikilən Alüminium zavodunun da fəaliyyətində problemlər yaradır.

Müstəqillik dövründə Gəncə şəhərində olan əlvan metallurgiya müəssisələrinin fəaliyyətinin bərpa edilməsi ilə yanaşı, qara metallurgiya və maşınqayırma müəssisələrinin təşkili istiqamətində mühüm addımlar atılmışdır. Bu işlərin başa çatdırılması üçün dövlət səviyyəsində maliyyə-texniki yardımlar və dəstək göstərilməsi ilə yanaşı, sənaye qovşağında təsərrüfatın səmərəli ərazi təşkilinin elmi-nəzəri əsaslarının da işlənilməsi vacib vəzifələrə aiddir. Ona görə dissertasiya aktual mövzuya həsr edilmişdir və onun nəzəri, əməli-praktiki əhəmiyyəti vardır.

Azərbaycan Respublikasında sənaye komplekslərinin yerləşməsi və ərazi üzrə təmərküzləşməsinin bir çox aspektlərinin öyrənilməsində iqtisadçı alimlərdən A.A.Nadirov, S.K.Hüseynov, F.Ə.Fərəcov və digərləri, iqtisadı çoğrafiyaçı alimlərdən A.M.Hacızadə, N.N.Allahverdiyev, H.Ə.Əliyev, M.A.Abramov, R.N.Məmmədov, T.G.Həsənov, Z.N.Eminov, Ç.N.İsmayılov, N.Ə.Paşayev, Z.T.İmrani, E.S.Bədəlov və bir sıra başqa alimlər tədqiq etmiş, bu problemin müxtəlif istiqamətlərində elmi əsərlər nəşr etdirmişlər.

Dünya səviyyəsində sənayenin kompleksləşmə nəzəriyyəsi və praktikası, istehsal və ərazi komplekslərinin öyrənilməsində xarici iqtisadi coğrafiyaçı alimlərdən M.M.Kolosovski, Y.G.Sauşkin, I.V.Nikolski, A.T.Xruşşov, V.M.Qoxman, I.M.Maerqeyz, A.A.Mins, N.V.Alisov, M.İ.Kozlov, A.E.Probst, X.Mak-Karti, E.Quver, U.İzard, E.Otremba, A.Lyoş, J.Şardonnet, G.Piyerr və başqalarını göstərmək olar.

Azərbaycanda sənaye sahəsində aparılan iqtisadi islahatlar sənaye qovşaqlarının inkişaf xüsusiyyətləri, onların təsərrüfatın sahə strukturunda və regionlar üzrə sənayenin səmərəli ərazi təşkilinin elmi-nəzəri və praktiki əsaslarının işlənib hazırlanması üçün davamlı olaraq elmi tədqiqat işlərinin aparılması tələb olunur. Ölkədə keçmiş

illərdə yaradılan sənaye qovşaqları və müasir dövrdə yaradılan sənaye parkları və məhəllələri son illər regionlar üzrə əsaslı şəkildə tədqiq edilməmişdir.

Bu baxımdan, Gəncə-Daşkəsən sənaye qovşağının müasir dövrdə istehsalın ərazi təşkili və inkişaf problemlərinin kompleks şəkildə və iqtisadi-coğrafi baxımdan tədqiq edilməsinin zəruriliyi dissertasiya işinin aktuallığını göstərir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti olan Gəncə-Daşkəsən sənaye qovşağı Azərbaycanın şimal-qərb hissəsində əlverişli iqtisadi-coğrafi, nəqliyyat-ticarət və digər mövqeyə malik olması ilə seçilir. Sənaye qovşağı eyni adlı İR tərkinə aid olub ölkənin qərbində ən böyük sənaye qovşaqı olması ilə fərqlənir, həmçinin Qazax-Tovuz İR və Şərqi Zəngəzur İR ilə qonşuluq mövqeyinə malikdir. Sənaye qovşağı ərazisinə Gəncə şəhəri, Daşkəsən və Göygöl rayonları aid olub, sahəsi 2,08 min $km^2$ olmaqla yerləşdiyi iqtisadi rayon ərazisinin 39,5% və ölkə ərazisinin 2,4%-ni, əhalisi 428,8 min nəfər (2023-ci il) olmaqla ölkə ümumi əhalisinin 4,2%-ni və şəhər əhalisinin 6,7% təşkil edir[1]. Bu ərazidə 3 şəhər, 18 qəsəbə və 81 kənd yerləşmişdir.

Tədqiqatın predmeti isə bu sənaye qovşağının inkişafının təbii-iqtisadi əsaslarının müəyyən edilməsi, səmərəli ərazi təşkilinin iqtisadi-coğrafi xüsusiyyətlərinin öyrənilməsi və davamlı inkişafın mövcud problemlərini müəyyən etməkdir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın **məqsədi** Gəncə-Daşkəsən sənaye qovşağında təsərrüfatın ərazi təşkilinin müasir iqtisadi-coğrafi əsaslarını öyrənmək, keçid dövründə yaranmış iqtisadi böhranın aradan qaldırılması yollarını müəyyən etmək, regionun təbii-iqtisadi potensialından istifadə edilməsi istiqamətlərini göstərməkdir.

Bunun üçün aşağıdakı **vəzifələr** qarşıya qoyulmuşdur:

- Sənaye qovşaqlarında təsərrüfat sahələrinin inkişafının üstünlüklərini göstərmək və onlardan istifadə edilməsi yollarını müəyyənləşdirmək;

[1] Azərbaycanın əhalisi – 2023. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı: – 2024. – 140 s.

- Gəncə-Daşkəsən sənaye qovşağının formalaşmasının tarixi-coğrafi inkişaf xüsusiyyətlərini öyrənmək, müstəqillik illərində yaranan problemlərin aradan qaldırılması yollarını göstərmək;

- Sənaye qovşağında təsərrüfat obyektlərinin fəaliyyətinin bərpası və strukturunun təkmilləşdirilməsi yollarını müəyyən etmək, bunun üçün təbii ehtiyatlardan istifadə edilməsi imkanlarını öyrənmək;

- Ətraf ərazilərlə əlaqələrin genişləndirilməsi hesabına kənd təsərrüfatı məhsullarının emalının təşkili ilə sənaye qovşağının iqtisadi potensialını gücləndirmək, sosial-mədəni obyektlərin ətraf rayonlarda məskunlaşan əhaliyə xidmətini yüksəltməklə onun rolunun yüksəldilməsinin əhəmiyyətini göstərmək;

- İqtisadi islahatlar dövründə görülən tədbirlərin sənaye qovşağında təsərrüfat strukturunun təkmilləşdirilməsinə təsirini öyrənmək, gələcəkdə həyata keçirilməsi tələb olunan istiqamətləri müəyyən etmək;

- Sənaye qovşağının iqtisadi potensialının gücləndirilməsinin əhalinin məşğulluğunun və həyat səviyyəsinin yüksəldilməsində, demoqrafik potensialın yerlərdə saxlanılmasında əhəmiyyətini öyrənmək, bu istiqamətdə təkliflər və tövsiyələr işləyib hazırlamaq.

**Tədqiqat metodları**. Tədqiqatın aparılması zamanı sənayenin, onun ərazi təşkili prinsiplərinin, inkişafında təbii-iqtisadi amillərin rolunun öyrənilməsinə həsr olunmuş Azərbaycan və xarici ölkə alimlərinin əsərləri nəzəri-metodoloji baza rolunu oynamışdır. Azərbaycanda regionların sosial-iqtisadi inkişafı, ayrı-ayrı təsərrüfat sahələri üzrə qəbul edilmiş Dövlət Proqramlarında olan elmi-praktiki əhəmiyyəti olan müddəalardan dissertasiya aparılan təhlillərdə istifadə edilmişdir.

Dissertasiyanın hazırlanması prosesində statistik təhlil, tarixi-coğrafi yanaşma, kartoqrafik üsul, coğrafi sintez, sistemli-struktur, müqayisəli təhlil və s. metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar**: Dissertasiya işinin müdafiəsi üçün aşağıdakı müddəalar müzakirəyə çıxarılır:

- Sənaye qovşaqlarının təsərrüfat səmərəli ərazi təşkilində əhəmiyyəti, burada olan istehsal, sosial-mədəni və demoqrafik əlaqələrin nizamlanması və regionun inkişafına təsiri;

- Gəncə-Daşkəsən sənaye qovşağının formalaşmasının təbii-iqtisadi və demoqrafik əsaslarının səmərəli istifadə edilməsi yolları, həmçinin bu amillərin və şəhər məskunlaşmasının təsərrüfat strukturunun təkmilləşdirilməsi üçün əhəmiyyəti;

- Gəncə-Daşkəsən sənaye qovşağında təsərrüfatın müasir strukturu, istehsal edilən məhsulların və göstərilən xidmətlərin çeşidi, onların regional və ölkə üzrə əhəmiyyəti;

- Sənaye qovşağında təsərrüfatın səmərəli ərazi təşkili istiqamətləri, bu sahədə yerinə yetirilən Dövlət Proqramlarının rolu.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiyanın elmi yeniliklərinə aşağıdakıları aid etmək olar:

- Gəncə-Daşkəsən sənaye qovşağının formalaşmasını müəyyən edən təbii-coğrafi şərait və təbii ehtiyatlar iqtisadi-coğrafi cəhətdən qiymətləndirilmiş, müasir şəraitdə onlardan istifadə edilməsi potensialı müəyyən edilmişdir;

- şəhər məskunlaşmasının inkişafı, urbanizasya ərazilərinin artımı, şəhər yaşayış məntəqələrinin yerləşməsi, həmçinin şəhərlərin əmək ehtiyatları, kadr potensialı və digər amillər sənaye qovşağların formalaşmasını sürətləndirən amillər sırasında olması araşdırılmışdır;

- Sənaye qovşağında təsərrüfatın sahə və ərazi strukturunun təkmilləşdirilməsinin əsas istiqamətləri, bu tədbirlərin ərazinin sosial-iqtisadi və demoqrafik inkişafı üçün əhəmiyyəti əsaslandırılmışdır;

- Gəncə-Daşkəsən sənaye qovşağında təsərrüfatın səmərəli ərazi təşkilinə nail olmaq üçün bir-biri ilə əlaqəli olan sahələrin yaradılmasının zəruriliyi göstərilmiş, bunun üçün regionda olan xammallar və yarımfabrikatların olması, onlardan istifadə edilməsi istiqamətləri müəyyən edilmişdir;

- Sənaye qovşaqlarının formalaşmasının əsası olan nəqliyyat-kommunikasiya şəbəkəsinin müasir vəziyyətinin iqtisadi-coğrafi təhlili aparılmış, prioritet inkişaf istiqamətləri işlənib hazırlanmışdır;

- Həyata keçirilən Dövlət Proqramlarının sənaye qovşağının inkişafında rolu tədqiq edilmiş, ölkənin inkişafında regionun payının yüksəldilməsi üçün zəruri olan təkliflər və tövsiyələr hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat prosesində aparılan təhlillər və onların nəticələri, nəzəri təkliflər,

Gəncə-Daşkəsən sənaye qovşağında təsərrüfat sahələrinin səmərəli ərazi təşkili, əhalinin məskunlaşması və onların iş yerləri ilə təminatı, sosial-mədəni xidmət göstərilməsi vəzifələrinin yerinə yetirilməsində əhəmiyyətli rol oynayacaqdır. Verilən tövsiyələr ölkənin digər sənaye qovşaqlarında təsərrüfatın yenidən qurulması işlərində əhəmiyyətli ola bilər. Eyni zamanda aparılan təhlillər və toplanan məlumatlar ali və orta təhsil müəssisələrində olan tədris prosesində istifadə edilən mühüm mənbə rolunu oynayır. Regionların iqtisadi və siosial-demoqrafik inkişafı üçün dissertasiyada olan müddəalar mühüm mənbələrdir.

**Tədqiqatın aprobasiyası və tətbiqi**. Dissertasiyada aparılan təhlillərin əsas nəticələri aşağıdakı beynəlxalq və respublika əhəmiyyətli konfranslarda məruzə edilmişdir. Onlara "Aqrar elmin inkişafı, ərzaq təhlükəsizliyi və ətraf mühitin mühafizəsində beynəlxalq əməkdaşlıq" VIII beynəlxalq elmi-praktiki konfransı (Gəncə, 2016), "Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali məskunlaşmasının prespektivləri və regional problemləri" mövzusunda elmi konfrans (Bakı, 2016), "İnsan və ətraf mühit münasibətləri" mövzusunda elmi konfransı (Bakı, 2017), "Su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit mövzusunda beynəlxalq elmi praktik konfransı, "AzərSu" ASC, (Bakı, 2017), "Qlobal iqtisadi şərait və Azərbaycanın iqtisadi-coğrafi mövqeyi" mövzusunda respublika elmi-praktiki konfransı (Bakı, 2017), "Жаратылыстану гылымдары білімн жанартылган мазмуны жагдайында модернизациялау" Халыкаралык гылыми – практикалык конференция Казакстан Республикасы География Институты (Алматы, 2017) və s. aiddir.

Tədqiqat işinin mövzusuna dair 10 elmi məqalə və konfrans materialı çap olunmuşdur.

Dissertasiya işində Gəncə-Daşkəsən sənaye qovşağı iqtisadiyyatının inkişaf etdirilməsi ilə bağlı verilən təklif və tövsiyələr, ölkə sənaye kompleksinin formalaşmasında, regionun əhali məşğulluğunda və xidmət infrastrukturunun yaradılmasında, həmçinin dövlət proqramlarının hazırlanmasında, investorların regiona cəlb olunmasında, eləcə də Şəhər və Yerli İcra Hakimiyyətlərinin illik iş planlarının hazırlanmasında, İqtasidiyyat

Nazirliyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində və digər nazirliklərdə istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil nazirliyi Gəncə Dövlət Universiteti "Coğrafiya" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, 4 fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin həcmi 155 səhifədir. İş 8 şəkil, 24 cədvəl, 142 adda ədəbiyyat siyahı¬sından ibarətdir. Giriş – 7 səhifə, I fəsil – 45 səhifə, II fəsil – 35 səhifə, III fəsil – 30 səhifə, IV fəsil – 22 səhifə, nəticə və təkliflər – 3 səhifə, ədəbiyyat siyahısı – 10 səhifədir. Cədvəlsiz, qrafiksiz, şəkilsiz və ədəbiyyat siyahısız 238264 işarədən ibarətdir.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

Girişdə mövzunun aktuallığı, tədqiqatın məqsədi, vəzifələri, nəzəri və metodoloji əsasları müəyyənləşdirilir, elmi yenliyi və praktiki əhəmiyyəti şərh olunur.

**Birinci fəsildə** təsərrufatın ərazi təşkilidə sənaye qovşaqlarının əhəmiyyəti və onlarin öyrənilməsinin nəzəri-metodiki əsasları öz əksini tapmışdır. Təsərrüfat sahələrinin və əhalinin cəmlənməsi əsasında yaranan yaşayış məntəqələri az vaxtda ətraf ərazilərdə olan təbii şəraitin imkanları, təbii sərvətlərin, becərilən kənd təsərrüfatı məhsullarının emalına əsaslanan istehsal müəssisələrinin fəaliyyəti ilə inkişaf edir.

Şəhərlərin təsərrüfat strukturunda ayrı-ayrı sahələrin payı bir çox amillərlə müəyyən edilir. Bu prosesdə ilkin vaxtlarda təbii-coğrafi amillər aparıcı təsirə malik olsa da, sonrakı mərhələlərdə sosial-iqtisadi amillərin təsiri ön plana çıxır. Bu amillərə iri faydalı qazıntı yataqlarının istismarı, kənd təsərrüfatı məhsullarının emalı üzrə iri həcmli yüngül və yeyinti sənayesi müəssisələrinin fəaliyyəti, faydalı qazıntıların ilkin emalından alınan xammallar və yarımfabrikatların əsasında metallurgiya, maşınqayırma, kimya və neft-kimya müəssisələrinin fəaliyyəti, nəqliyyat qovşaqlarında yaşayış məntəqələrinin yerləşməsi, İCM və s. aid edilə bilər.

Hazırda ölkədə sənaye obyektlərinin regionlar üzrə yerləşməsi, bu müəssisələrdə sənaye məhsulları istehsalının paylanmasının təhlili göstərir ki, bu sahədə ciddi regional uyğunsuzluqlar yaranmışdır. Bunun qarşısını almaq üçün genişmiqyaslı tədbirlər həyata keçirilsə də alınan nəticələr zəifdir, regionların ölkənin iqtisadi potensialında payı aşağı olaraq qalır. XX əsrin 70-ci illərindən başlanan inkişaf prosesində, regionlarda maddi-texniki bazanın formalaşması əsasında Aran və Gəncə-Qazax İR sənaye məhsulu istehsalında xüsusi çəkiləri 1980-ci illərdə müvafiq olaraq 12% və 8%, 1990-cı ildə isə hətta 17% və 11% olmuşdur. Ölkə sənaye strukturunun ərazi təşkilində baş verən dəyişiliklər nəticəsində XX əsrin sonlarından başlayaraq neft-qaz sənayesi aparıcı rola malik olmuş və bu sahənin payı sürətlə artmışdır. 2005-ci ildə bu sahənin pay göstəricisi 67% yaxın, 2010-cu və 2022-ci illərdə 72,0% idi. Lakin son illər bu sahədən əldə edilən gəlirlər digər təsərrüfat sahələrinin inkişafına zəif surətdə sərf edilmişdir. Ölkədə sənayenin sahə və ərazi strukturunun regionlar üzrə paylanmasının təhlili göstərir ki, ayrı-ayrı iqtisadi rayonlarda bu sahədə ciddi uyğunsuzluqlar vardır. Bu səbəbdən aparıcı regionlar olan Aran və Gəncə-Qazax İR sənaye məhsulu istehsalında xüsusi çəkiləri azlaraq müvafiq olaraq 2,6% və 1,6% olmuşdur. Regionların zəif inkişafı onların ölkənin sənaye məhsulları istehsalında bir neçə faiz pay ilə iştirakına səbəb olur. Bakı və Abşeron İR bu sahədə payları artaraq 2022-ci ildə 92,8% çatmışdır. Ölkənin regionları və Abşeron arasında sənaye məhsulları istehsalında kəskin fərqlərin yaranmasında əsas səbəblərdən biri də digər sənaye sahələri, yəni qeyri-neft sektorunun zəif templə inkişaf etdirilməsidir, belə ki, 2010-2022-ci illər ərzində emal sənayesi məhsul istehsalının dəyəri hasilat sənayesi ilə bərabər yəni 3,2 dəfə artmışdır. Bu proses həyata keçirilən tədbirlərin öz nəticələrini verdiyini göstərərir, lakin hələlik bu sahədə ciddi problemlər qalır.

Respublikada sənayenin sahə və ərazi strukturunun formalaşması, onun inkişafına əhəmiyyətli təsir göstərən təbii-coğrafi amillər və mövcud iqtisadi-coğrafi potensialdan istifadənin elmi-nəzəri əsaslarının işlənib hazırlanması istiqamətində geniş həcmli tədqiqat işləri aparılmışdır. Bu tədqiqatlar hələ XX əsrin 70-80-cı illərində daha geniş vüsət almışdır. XX əsrin ikinci yarısında

Azərbaycanda sənayenin inkişafı üçün yeni obyektlər şəbəkəsinin qurulması, regionlarda yeni istehsal və xidmət müəssisələrinin tikilməsi onun kompleks inkişafına xidmət edirdi. Bu amillər isə əhalinin və təsərrüfatın Abşeronda cəmlənməsinin qarşısını almaq üçün çox vacib tədbirlər hesab edilirdi[2].

Aparılan tədqiqatlarda sənayenin ayrı-ayrı sahələrinin öyrənilməsi ilə yanaşı, onun kompleks inkişafı, sahə və ərazi strukturunun səmərəli təşkili istiqamətlərini əhatə etmişdir. Azərbaycanda sənayenin tədqiq edilməsi sahəsində respublika alimləri ilə yanaşı, Rusiyada,Ukraynada və digər xarici ölkələrdə yaşayan alimlərin əsərlərində də aparılır. Onların nəticələrinin nəzərə alınması sənayenin daha səmərəli ərazi təşkilinə əhəmiyyətli təsir göstərmişdir.

Təsərrüfat obyektlərinin yerləşdirilməsi prosesində çoxsaylı təbii-coğrafi və sosial-iqtisadi amillər nəzərə alınır. Hazırda istehsal və xidmət sahələri üzrə obyektlərin ərazi təşkili prosesində iqtisadi, iqtisadi-coğrafi, texniki və texnoloji amillərin təsiri ön plana çıxır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra təsərrüfat sahələrində iqtisadi islahatlar aparılması ilə yanaşı, dünya təsərrüfatına inteqrasiya da qarşıda duran vəzifələr sırasında olmuşdur.

Bazar münasibətlərinə uyğun təsərrüfat sisteminin qurulması, onun idarə edilməsinin müasir tələblərə uyğunlaşdırılması, özəlləşdirmə aparılması, beynəlxalq bazarlarda iştirak etmək qabiliyyətində olan şəxsi, xarici, birgə mülkiyyətə əsaslanan müəssisələrin yaradılması tələb olunurdu və onların xeyli hissəsi hazırda artıq yerinə yetirilmişdir.

Ölkə daxilində təsərrüfat sahələrinin ərazi təşkili istiqamətlərindən biri də kompleks inkişafın təmin edilməsidir. Bunun üçün bir-biri ilə istehsal-texnoloji, əmək ehtiyatlarından istifadə edilməsi üzrə əlaqələri olan müəssisələrin bir-birinə yaxın yerləşdirilməsi tələb olunur. Sənayenin kompleks inkişafı prosesində mineral-xammal ehtiyatları, kənd təsərrüfatı xammallarının texnoloji cəhətdən ardıcıl olaraq emaldan keçirilir, xammallar kompleks

---

[2] Гаджизаде А.М. Азербайджанский промышленный комплекс. – Баку: Азернешр, – 1975, – 204 с.

şəkildə tam olaraq bütün emal mərhələlərini bir müəssisədə və yaxınlıqda yerləşən bir neçə müəssisədə keçirilir. Eyni zamanda sənaye komplekslərinin yaradılması istehsal prosesində alınan tullantıların, qalıqların, əlavə məhsulların, xammalların emalı və istifadə edilməsinə əlverişli şərait yaradır.

Azəbaycanda sənayenin sahə və ərazi strukturunun formalaşmasında aparıcı yer tutan iqtisadi rayonlar və sənaye qovşağları arasında Gəncə-Qazax və Gəncə-Daşkəsən fərqlənmiş, son 20 ildə ümumi istehsal sahələri üzrə məhsulun dəyəri və əsas kapitala yönəlmiş vəsait xeyli artmış, sənaye məhsul istehsalınının dəyər üzrə payı azalmışdır (cədvəl 1).

**Cədvəl 1**

**Gəncə-Qazax iqtisadi rayonun və Gəncə-Daşkəsən sənaye qovşağının əsas sosial-iqtisadi göstəriciləri və ölkə üzrə payları (%-lə)**

| Göstəricilər | Gəncə-Qazax İR | | | Gəncə-Daşkəsən SQ. | | |
|---|---|---|---|---|---|---|
| | 2003 | 2013 | 2023 | 2003 | 2013 | 2023 |
| Əhali sayı | 13,5 | 13,0 | 12,5 | 3,7 | 3,5 | 3,3 |
| Şəhər əhalisi üzrə | 12,1 | 11,2 | 10,7 | 7,3 | 6,8 | 6,0 |
| Ümumi istehsal sahələri üzrə məhsulun dəyəri | 2,1 | 4,2 | 3,7 | 0,9 | 1,2 | 1,0 |
| Əsas kapitala yönəlmiş vəsait | 0,6 | 5,3 | 3,3 | 0,1 | 2,0 | 1,0 |
| Sənaye məhsulu | 2,6 | 1,6 | 1,6 | 1,1 | 0,9 | 1,0 |
| Parakəndə ticarət dövriyyəsi | 4,1 | 8,8 | 7,8 | 3,1 | 2,9 | 3,0 |
| İstifadəyə verilən mənzillər (min $m^2$) | 170,9 | 336,9 | 120,6 | 24,6 | 120,4 | 27,8 |
| Əhalinin gəlirləri | - | 8,7 | 7,9 | - | 3,3 | 2,8 |
| Yeni iş yerləri min n. | 4,6 | 9,2 | 2,1 | 2,6 | 3,2 | 0,9 |

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi[3] [4] [5]

Ölkədə müstəqillik illərində regionların sosial-iqtisadi inkişafının təmin edilməsi sahəsində həyata keçirilən Dövlət

[3] Azərbaycanın regionları - 2004. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı: – 2005. – 713 s.
[4] Azərbaycanın regionları - 2015. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı: – 2015. – 836 s.
[5] Azərbaycanın regionları - 2023. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı: – 2024. – 788 s.

Proqramları çərçivəsində iri istehsal müəssisələri təşkil edilmişdir. Lakin onların əksəriyyəti ayrı-ayrılıqda fəaliyyət göstərən obyektlərdən ibarətdir. Ona görə bir çox hallarda müəssisələr az vaxtdan sonra dayanır və fəaliyyətinin bərpa edilməsində çətinliklər yaranır.

Aqlomerasiyalar əksər hallarda sənaye qovşaqları kimi formalaşır və onlara daxil olan şəhərlər və qəsəbələr bir-biri ilə sıx iqtisadi, istehsal-texnoloji, infrastruktur obyektlərinin istifadə edilməsi əlaqələrinə malik olurlar. Sənayenin kompleks inkişafı prosesində mineral-xammal ehtiyatları, kənd təsərrüfatı xammallarının texnoloji cəhətdən ardıcıl olaraq emaldan keçirilir[6].

Beləliklə, ölkədə sənaye qovşaqlarının formalaşması sənayenin səmərəli ərazi təşkili üçün vacibdir və bu sahədə xüsusi əhəmiyyətə malikdir. Sənaye qovşaqları onların kompleks inkişafı şəraitində formalaşır. Bu isə konkret ərazilərdə təsərrüfat strukturunun yenidən qurulması üçün mühüm tədbirlərin həyata keçirilməsi şəraitində mümkün olur, təbii ehtiyatlar və kənd təsərrüfatı məhsullarının emalının tam silsiləsinin yaradılmasına səbəb olur.

**İkinci fəsildə** sənaye qovşağının inkişafina təbii-coğrafi amillərin təsiri araşdırılıb. Təsərrüfat sahələrinin ərazi təşkilində, yeni obyektlər şəbəkəsinin yaradılmasında və genişləndirilməsində, ətraf ərazilərlə əlaqələr qurulmasında, müəssisələrin xammallar və yarımfabrikatlar ilə təmin edilməsində, hazır məhsulların daşınmasında təbii-coğrafi şərait əhəmiyyətli rol oynayır. Relyef şəraiti Gəncə-Daşkəsən sənaye qovşağının formalaşmasında da mühüm əhəmiyyət kəsb edir. Gəncə-Qazax düzənliyində nisbətən az meyilli ərazilərdə şəhərlər və kənd yaşayış məntəqələrinin salınması, nəqliyyat-kommunikasiya şəbəkəsinin yaradılması, kənd təsərrüfatı işlərinin aparılması üçün əlverişli şərait mövcuddur.

İqlim şəraiti və aqroiqlim ehtiyatları ərazinin mənimsənilməsində xüsusi əhəmiyyət kəsb edir. Havanın temperaturu ərazilərin mənimsənilməsində, kənd təsərrüfatı işlərinin aparılmasında və ixtisaslaşma istiqamətlərinin seçilməsində əhəmiyyətli rol oynayır.

---

[6]Алаев, Э.Б. Социально-экономическая география. Понятийно-терминологический словарь / Э.Б.Алаев. – Москва: “Мысль”, – 1983. – 350 с.

Gəncə-Qazax regionunda daxili sular şəbəkəsinə aid olan obyektlər təsərrüfat sahələrinin ərazi təşkilinə və əhalinin məskunlaşmasına ciddi şəkildə təsir göstərir. Regiondan başlanan, Kür çayının sağ qollarının əksəriyyəti ölkə ərazisindən axır. Onlara Zəyəm, Şəmkir, Qoşqar, Gəncə, Kürək, Goran və İncə çayları aiddir. Ağstafa, Tovuz, Həsənsu çayları Ermənistanın ərazisindən başlanır, aşağı axarlarında Azərbaycana daxil olur. Çaylar əsasən yazda və yayın əvvəlində dağlarda qarın əriməsi, intensiv yağışlar zamanı gursulu olur. Kür çayı üzərindəki Mingəçevir və Şəmkir su anbarlarının əhəmiyyəti çoxdur.

Region faydalı qazıntı ehtiyyatı ilə yaxşı təmin olunub. Kicik Qafqaz dağlarında müxtəlif mənşəli süxurların yayılması regionda dəmir filizi, alunit, polimetal filizləri, qızıl, mis, civə filizlərinin yayılmasına imkan verir. Eyni zamanda burada barit, mərmər, qum-çınqıl, gips yataqları kifayət qədər ehtiyatlara malikdir (şəkil 2).

Ölkənin sənaye cəhətdən ən mühüm və əhəmiyyətli təbii sərvətləri sırasına Daşkəsən rayonunda olan dəmir filizi ehtiyatları da daxildir. Rayon ərazisində dəmir filizinin Daşkəsən, Cənubi Daşkəsən və Dəmirli yataqları müəyyən edilmişdir. Müstəqillik illərində bu sahədə ciddi problemlər yaranmış və dəmir filizinin hasilatı dayandırılmış və ya çox az səviyyədə hasilatı aparılmışdır. Ölkədə dəmir filizinin hasilatının bərpası üçün yaxın şəhərlərdə, məs. Gəncə və ya Daşkəsən şəhərində müasir texnologiyaya əsaslanan metallurgiya zavodunun tikilməsi zərurəti yaranmışdır. Gəncə şəhərində müasir metallurgiya zavodunun tikintisi başlanmışdır.

Gəncə-Qazax zonasında ikinci sənaye əhəmiyyətli faydalı qazıntı yenə də Daşkəsən rayonunda yerləşən alunit ehtiyatlarıdır. Əlvan metallurgiya sənayesinin inkişafı üçün mühüm xammal hesab edilən alunit Daşkəsən rayonundakı Zəyəm yatağındadır. Onun ehtiyatlarından istifadə edilməsi əsasında Gəncədə Alüminium zavodu tikilmiş və onun ilkin emalı təşkil olunmuşdur. Son məhsul alınması və alüminium-oksidinin təmizlənməsi üçün Sumqayıt Alüminium zavodunda həyata keçirilmişdir. Lakin hazırda elektrik enerjisi ilə təminatın baha başa gəlməsi və bunun dünya bazarına çıxarılması səmərəli olmadığına görə ölkədə olan 3 Alüminium zavodu tam gücü ilə fəaliyyət göstərə bilmir.

Daşkəsən rayonunda yerləşən Şimali Daşkəsən yatağında kobalt, Göygöl rayonunda Molla Cəlil adlanan ərazidə manqan filizləri müəyyən olunmuşdur. Qara metallurgiya sənayesində çoxsaylı köməkçi materiallardan istifadə olunur. Onlar arasında flüslü əhəngdaşı Daşkəsən rayonunda, Xoşbulaq yatağında yerləşir. Qazax rayonunda olan Daş Salahlı, Göygöl rayonunda yerləşən Qaymaqlı yatağındakı bentonit gili ehtiyatları bu sahədə istifadə edilə bilər.

Gəncə-Qazax iqtisadi rayonunda kimya sənayesini xammallar ilə təmin edə biləcək çoxsaylı mineral-xammal mənbələri vardır. Onlar arasında barit ehtiyatları əhəmiyyətinə görə seçilir. Barit ehtiyatları Başqışlaq, Çovdar və Çıraqdərə yataqlarında toplanır. Göygöl rayonunda Toğanalı və Murut kəndlərinə yaxın ərazilərdə kükürd kolçedanı ehtiyatları vardır. Bu yataqlardan istifadə edilməsi imkanları böyükdür. Lakin bunun üçün xüsusi emal müəssisələrinin yaradılmasına ehtiyac vardır. Ölkədə təsərrüfat obyektlərinin bu xammallardan alınan məhsullara ehtiyacı yaradıldığı halda belə müəssisələrin təşkili mümkündür. Regionun ölkə əhəmiyyətli mineral-tikinti xammallarına Daşkəsən rayonunda yerləşən mərmər ehtiyatları, Goranboy rayonunda Yuxarı Ağcakənd yatağında yerləşən gips, Qazax, Zəyəm, Ağdağ və Murut əhəngdaşı yataqları daxildir. Gədəbəy rayonunda mis kolçedani ehtiyatları Qaradağ və Bitti-Bulaq yataqlarında toplanır. Onlar XIX əsrdə Almaniyanin "Simens" Şirkəti tərəfindən istifadə edilmişdir. Qalakənd kəndi yaxınlığında misin əridilməsi üzrə zavodlar fəaliyyət göstərmişdir. Polimetal filizi ehtiyatları Göygöl rayonunda Çovdar yatağında və Daşkəsən rayonunda da müəyyən edilmişdir. Hazırda Gədəbəy və Daşkəsən rayonlarında Qızıl emalı zavodları bu ehtiyatlardan istifadə edilməsi əsasında fəaliyyət göstərir.

Sənayenin inkişafı şəhər məskunlaşmasında "lokomotiv" rolunu oynayır. Onlar sənaye komplekslərinin ərazi sistemlərinin dayaq mərkəzlərinə çevrilir və məskunlaşmada yaşayış məntəqələri sistemində mərkəzlər rolunu oynayır. Gəncə ölkənin qərb zonasında belə mərkəz rolu oynayır, bu şəhərdə Gəncə-Qazax iqtisadi rayon əhalisinin 25,9% və şəhər əhalisinin 70,5% cəmlənmişdir. Gəncə-Daşkəsən İR urbanizasiya səviyyəsinin (71,2%) yüksək olmasında

Gəncə şəhərinin rolu böyükdür. Gəncənin əmək ehtiyatları və kadr potensialı sənaye qovşağının formalaşmasını sürətləndirən amillər sayılır. Müstəqillik illərində Gəncə şəhərinin demoqrafik inkişafı üzrə əsas meyllərin təhlili göstərir ki, onların dinamikasında geriləmələr getmişdir və bu proseslər demoqrafik böhranın yaranmasına dərinləşməsinə səbəb ola bildiyi üçün təxirəsalınmaz tədbirlər planı dövlət səviyyəsində aparılmalıdır.

**Üçüncü fəsildə** sənayenin müasir ərazi təşkili və müstəqillik illərində olan transformasiyaları araşdırılır. Gəncə-Daşkəsən sənaye qovşağında sənaye yaşayış məntəqələrinin təsərrüfat strukturunda mühüm yer tutur. Bura daxil olan müəssisələr əhalinin məşğulluğuna təsir edir, əsasən daxili tələbat üçün məhsullar istehsal edilir. Keçid dövründə regionda sənayenin ayrı-ayrı sahələri üzrə istehsal və xidmət obyektlərinin fəaliyyətində ciddi çətinliklər olmuşdur. Həyata keçirilmiş tədbirlər, qəbul edilmiş “Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının” yerinə yetirilməsi müddətində onların xeyli hissəsinin fəaliyyəti bərpa edilmiş, zəruri hallarda yeni obyektlər tikilmişdir.

İqtisadi rayonda sənaye obyektlərinin sayı davamlı olaraq dəyişir. Müstəqillik illərində ASK-ya aid olan istehsal obyektlərinin sayı xeyli artmışdır. Onların böyük əksəriyyəti şəhərlərdə yerləşir. Ona görə də Gəncə-Daşkəsən sənaye qovşağında təsərrüfat strukturunun təkmilləşdirilməsi və inkişafı hazırda da davam edir. İqtisadi rayon üzrə sənaye qovşağının sənaye məhsul istehsalı üzrə pay göstəricisi 2022-ci ildə 58,3% olsa da, emal sənayesi üzrə 70% və hasilat sənayesi üzrə 51% çox olmuşdur. Müasir dövrdə sənayenin ərazi təşkili strukturunda iki İR fərqlənir, Qazax-Tovuz İR sənayenin ərazi strukturunda rayonlar üzrə pay göstəricisinə görə aparıcı yerləri Qazax (37,1%) və Gədəbəy (35,9%) tutur, digərləri az paya malikdirlər. Gəncə-Daşkəsən İR sənayenin sahə strukturunda emal sənayesinin pay göstəricisi hasilat sənayesindən 3 dəfə çox olması ilə fərqlənir. Ərazi təşkili strukturunda rayonlar üzrə pay göstəricisinə görə aparıcı yerləri Gəncə şəhəri (65,7%) və Daşkəsən rayonu (22,4%) tutur. Digər rayonların pay göstəriciləri çox aşağı olmuşdur. İR sənaye xəritəsində sənayenin ərazi və sahə tərkibi haqqında ətraflı məlumat verilir (şəkil 1).




**Şəkil 1. Gəncə-Qazax iqtisadi rayonun sənayesinin ərazi təşkili**

Regionun təsərüfatının förmalaşmasında sənayenin sahə strukturunun mütənasibliyinin təmin olunması ölkənin regional siyasətinin əsasını təşkil edir. Regional müstəvidə məkanın formalaşması və inkişafı bu problemin düzgün həllində çox aslıdır. Tədqiqat regionunda sənayenin prioritet sahələri emal sənayesi və hasilatdır. Son 20 il ərzində olan təhlilinə görə bu sənaye komplekslərindən hasilat sənayesinin payı xeyli artmış, xüsusilə metal filiz hasilatı üzrə, emal sənayesinin məhsul istehsalının dəyərinə görə payı isə 1-ci onillikdə artsa da, sonralar sabit qalmışdır. Emal sənaye sahələrindən əsas aparıcı sahələri metallurgiya və maşınqayırma olmuş, onların pay göstəricisi sürətlə artsa da son illər azalmağa doğru meyli edir. Yeyinti sənayesində pay göstəricisi çox sürətlə azalsa da, son beş ildə 2 dəfə artmışdır. Tikinti materialları sənayesində isə pay göstəricisi son beş ildə 10 dəfədən çox artmışdır.

**Cədvəl 2**

**Gəncə-Qazax iqtisadi rayonda sənayenin sahə strukturunun dəyişməsi (%)**

| Sənaye sahələri | İllər | | | |
|---|---|---|---|---|
| | 2000 | 2005 | 2012 | 2022 |
| **Hasilat sənayesi, o cümlədən** | **1,7** | **1,0** | **25,4** | **28,4** |
| Yanacaq faydalı qazıntıları hasilatı | 0,1 | - | - | - |
| Mineral tikinti xammalı | 1,6 | 1,0 | 4,9 | 2,9 |
| Metal filizləri hasilatı | - | - | 20,5 | 25,5 |
| **Emal sənayesi** | **56,3** | **78,3** | **56,3** | **56,3** |
| Metallurgiya | 0,8 | 54,5 | 29,4 | 18,2 |
| Maşınqayırma | 1,4 | 3,1 | 14,7 | 7,7 |
| Kimya | 29,6 | 0,4 | 0,5 | 1,2 |
| Tikinti materialları | 0,3 | 2,0 | 1,0 | 9,7 |
| Yeyinti | 22,8 | 16,3 | 8,8 | 18,4 |
| Yüngül | 1,0 | 1,3 | 1,4 | 0,3 |
| Meşə, ağac emalı, nəşriyyat | 0,3 | 0,4 | 0,4 | 1,1 |
| Digər sahələr | 0,1 | 0,3 | 0,1 | |
| **Elektrik, təbii qaz hasilatı** | | | **15,5** | **13,0** |
| **Su təchizatı və tullantı emalı** | **42,0** | **20,7** | **2,8** | **2,3** |
| **Cəmi** | **100,0** | **100,0** | **100,0** | **100** |
| Sənaye müəssisələri | 164 | 284 | 269 | 311 |
| Sənaye işçiləri, nəfər | 20181 | 15798 | 14038 | 34615 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi[7] [8] [9]

Metallurgiya sənayesi Gəncə-Daşkəsən sənaye qovşağının formalaşmasında aparıcı yeri tutur. Burada aparıcı rol əlvan metallurgiya sənayesinə aiddir. İqtisadi rayona daxil olan Daşkəsən rayonunda yerləşən alunit yatağından istifadə edilməsi üçün Gəncə şəhərində Alüminium zavodu tikilmişdir. Burada alunit ilkin emaldan keçirilmişdir. Daşkəsən rayonunda hasil olunan alunit təmizləndikdən sonra Gəncə Alüminium zavodunda ilkin emaldan

[7] Azərbaycanın sənayesi - 2007. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı: – 2008. – 574 s.

[8] Azərbaycanın sənayesi - 2014. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı: – 2015. – 344 s.

[9] Azərbaycanın sənayesi - 2022. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı: – 2023. – 213 s.

keçirilmiş və alüminium-oksid ($Al_2O_3$-gil-torpaq) alınmışdır. Təmiz alüminium metalı alınması Sumqayıt şəhərində həyata keçirilirdi. Əlavə məhsulların istifadə edilməsi çətin olduğuna, mineralın tərkibində faydalı elementlər aşağı (20-21%) olduğuna görə xammaldan təmiz alüminium metalı alınması səmərəli hesab edilmir və nəticədə gətirilmə xammal əsasında Gəncə şəhərində Alüminium zavodunun fəaliyyəti qismən bərpa edilmişdir.

Müstəqillik illərində müasir texnologiyadan istifadə edilməsi, yerli xammal yataqlarından istifadə edilməsində problemlər olduğuna görə idxal olunan boksitdən istifadə edilməsi əsasında təmiz alüminium metalı alınması məqsədilə Gəncə şəhərində yeni zavod qurulmuşdur. Hazırda ölkədə əlvan metallurgiya müəssisələri "Det-Al Holdinq" Şirkətinə tabedir. 2008-ci ildə Gəncə şəhərində yeni Alüminium zavodunun əsası qoyulmuş, 2011-ci ildə ilkin fazası istismara verilmişdir.

Ölkədə son vaxtlarda sürətlə inkişaf edən maşınqayırma sənayesində ayrı-ayrı detalların və ehtiyat hissələrinin istehsalı, əlavə detalların alınması üçün mühüm əhəmiyyət kəsb edir. İstehsal edilən polad məmulatı həmçinin Gəncə şəhərində fəaliyyət göstərən Avtomobil zavodu üçün vacib olan xammalı əldə etməyə imkan verəcəkdir, yeni maşınqayırma zavodlarının tikilməsinə şərait yaradacaqdır.

Maşınqayırma ən mühüm şəhər əmələ gətirici amil kimi əmək ehtiyatlarından istifadə edilməsində, gəlirlər əldə olunmasında, ixrac potensialının yüksəldilməsində aparıcı yer tutur. Gəncə şəhərində maşınqayırma bir neçə müəssisə ilə təmsil olunur. Burada davamlı olaraq konkret məhsullar istehsal edilməsə də, ölkənin ayrı-ayrı maşın və avadanlıqlara tələbatını ödəmək üçün məhsullar istehsal olunur.

"AzerBlast" MMC-nin təsisçiləri tərəfindən partlayıcı maddələrinin istehsalı zavodunun Gəncə şəhərində inşa edilməsində məqsəd ölkəmizin əsas dağ-mədən sənaye mərkəzinə yaxınlığı ilə bağlı olmuşdur. Bu müəssisə yerli tələbat və ixrac potensialı qiymətləndirilməklə məhsul istehsal edəcəkdir.

Gəncə-Daşkəsən sənaye qovşağında zəif inkişaf edən sahələrdən biri kimi yüngül sənayeni göstərmək olar. Regionda bu sahənin inkişafı üçün kifayət qədər xammal bazası, ucuz işçi qüvvəsi,

istehlakçılar potensialı vardır. Uzun illər ərzində Gəncə şəhərində bu sahədə çoxsaylı müəssisələr olmuşdur. Lakin xammal çatışmazlığı, texnoloji avadanlıqların köhnəlməsi, məhsulların satışında yaranan çətinliklər müəssisələrin bağlanmasına səbəb olmuşdur.

Gəncə-Daşkəsən sənaye qovşağının sənayenin strukturuna daxil olan sahələrin xüsusi çəkisi davamlı olaraq dəyişir. Sənaye məhsulu və hasilat sənayesi dəyər göstəricisinə görə pay göstəricisi iqtisadi rayon üzrə yarıdan çox olsada, ölkə üzrə metal faydalı qazıntı hasilatına 56,6% olmuşdur. Emal sənayesi üzrə pay göröstəricisi İR üzrə yüksək olduğu halda, ölkə üzrə 3,1% olmuş, lakin bəzi ixtisaslaşmış sənaye sahələri üzrə, xüsusilə metallurgiyada 17,2% və maşınqayırmada 7,7% yüksək olması, digər sahələrin pay göstəriciləri aşağı olması ilə fərqlənmişdir (cədvəl 3).

**Cədvəl 3**

**Gəncə-Daşkəsən SQ-nın ölkə və iqtisadi rayon sənaye strukturunda xüsusi çəkisi. 2022 (mln. man. və %)**

| Sahələr | Azərbaycan | Gəncə-Qazax IR | Gəncə - Daşkəsən. SQ. | Gəncə-Qazax İR və ölkə üzrə SQ. payı % | |
|---|---|---|---|---|---|
| Hasilat sənayesi, o c. | 64745,3 | 402,2 | 205,8 | 51,2 | 0,3 |
| Metal faydalı qazıntı hasilatı | 361,4 | 361,4 | 204,5 | 56,6 | 56,6 |
| D.faydalı qazıntı | 180,3 | 40,9 | 1,3 | 3,2 | 0,7 |
| Emal sənayesi, o c. | 18116,4 | 798,4 | 559,0 | 70,0 | 3,1 |
| Metallurgiya | 1482,6 | 258,0 | 255,2 | 98,9 | 17,2 |
| Maşınqayırma | 1344,8 | 109,1 | 103,9 | 95,2 | 7,7 |
| Kimya | 2335,0 | 17,0 | 7,8 | 45,9 | 0,3 |
| Tikinti materialları | 1082,3 | 136,9 | 25,4 | 18,6 | 2,4 |
| Yeyinti | 6222,8 | 256,9 | 162,3 | 63,2 | 2,6 |
| Yüngül | 576,2 | 4,8 | 1,3 | 27,1 | 0,2 |
| Meşə,mebel və d., | 537,3 | 15,7 | 3,2 | 20,4 | 0,6 |
| Digər sahələr | 98,5 | 0,4 | 0,2 | 50,0 | 0,2 |
| Enerji istehsalı və təbii qaz təminatı | 3016,3 | 184,0 | 39,5 | 21,5 | 1,3 |
| Su təchizatı və tullantı emalı | 505,4 | 33,1 | 22,2 | 67,1 | 4,5 |
| Sənaye üzrə | 86383,4 | 1417,7 | 826,5 | 58,3 | 1,0 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi[10].

[10]Azərbaycanın sənayesi - 2022. / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. – Bakı: – 2023. – 213 s.

Gəncə şəhəri uzun illər ərzində əlvan metallurgiya və maşınqayırma müəssisələrinin fəaliyyət göstərdiyi mərkəz olmuşdur.

Sənaye qovşağında kənd təsərrüfatı məhsullarının emalı obyektləri azdır. Meyvə şirələri, konservlər, süfrə suları istehsalının yaradılması vacibdir. ASK-ya daxil olan yüngül sənaye müəssisələri də regionda azdır. Əhaliyə xidmət göstərən elektrik enerjisi, buxar istehsalı və təchizatı, su təchizatı, tullantıların emalı sahələrinin müasir tələblərə uyğun qurulması tələb olunur.




**Şəkil 2. Gəncə-Daşkəsən iqtisadi rayonunun və qovşağının sənaye strukturu və faydalı qazıntıları**

Gəncə şəhərində müstəqillik illərində sənayenin inkişaf dinamikası, aparılan iqtisadi islahatların əsas nəticələri və müasir

vəziyyətinin təhlili göstərir ki, emal sənayesi aparıcı mövqeyə malikdir.

Hazırda Gəncə şəhərində sənayenin strukturunda tikinti materialları istehsalı, meşə və ağac emalı, o cümlədən mebel istehsalı sahələri də aşağı səviyyədə xüsusi çəkiyə malikdir. Onların payının yüksəldilməsi üçün tədbirlərin davam etdirilməsi vacib vəzifələr sırasına daxildir.

Daşkəsən rayonunda sənayenin sahə strukturu və ərazi təşkilinin müasir vəziyyətinin təhlili göstərir ki, təbii sərvətlərlə zəngin olmasına baxmayaraq bu sahə zəif inkişaf etmişdir, monostruktur xarakterlidir. Dəmir filizi və alunitin emalı müəssisələri olmadığına və ya fəaliyyət göstərmədiyinə görə hasilat aparılmır. Son vaxtlarda Qızıl zavodunun fəaliyyətə başlaması ilə əlaqədar hasilat sənayesi aparıcı sahəyə çevrilmişdir. Rayonda emal sənayesi obyektləri çox zəif gücə malik olduğuna görə bir müəssisənin fəaliyyəti onun strukturunu müəyyən edir. Sənayenin inkişafı üçün yerli ehtiyatlar və potensialdan istifadə edilməsinə əsaslanan müəssisələrin təşkili vacibdir.

Daşkəsən şəhəri və ətraf qəsəbələrin iqtisadi bazası zəif olduğuna görə məntəqələrin demoqrafik inkişafında da ciddi problemlər vardır. Zəif iqtisadi baza sosial inkişaf üçün də maneə yaradır.

**Dördüncü fəsildə** Gəncə-Daşkəsən sənaye qovşağının inkisafının prioritet istiqamətləri araşdırılır. Gəncə-Daşkəsən sənaye qovşağında sənayenin inkişafı üçün təbii-coğrafi şərait, faydalı qazıntıların potensial ehtiyatları və istifadə edilməsi üçün şərait, nəqliyyat-kommunikasiya şəbəkəsi, demoqrafik potensial vardır. Burada yaxın gələcəkdə yaradılacaq təsərrüfat obyektlərinin elektrik enerji ilə təminatı üçün Gəncə şəhəri ətrafında yeni İEM-lərin tikilməsi vacibdir.

Regionun düzənlik əraziləri olan Gəncə-Qazax düzənliyi və Ceyrançöldə günəşli saatların uzun müddət davam etməsi ilə əlaqədar HelioES-lər qurulması imkanları böyükdür. Ona görə elektrik enerji istehsalının artırılması yollarından biri də bu təbii-iqtisadi potensialdan istifadə edilməsidir. Gəncə şəhərində İsveçrənin Vaqonqayırma şirkətləri ilə birlikdə elektrovozlar istehsal edən

müəssisənin yaradılması sahəsində razılıq əldə edilmişdir. Şəhərdə bu müəssisənin fəaliyyətə başlaması ölkədə sənayenin bu aparıcı sahəsinin inkişafında mühüm addım hesab edilə bilər.

Ölkədə aparılan iqtisadi islahatlar prosesində sosial-mədəni obyektlərin yenidən qurulması, göstərdiyi xidmətlərin yüksəldilməsi, ərazi təşkilində olan problemlərin aradan qaldırılması, yeni obyektlər şəbəkəsinin yaradılması vacib vəzifə kimi qarşıya qoyulur. Həyata keçirilən tədbirlər onların göstərdiyi xidmətlərdə olan regional fərqlərin aradan qaldırılmasına xidmət etməlidir. Eyni zamanda şəhərlər və kənd məntəqələrində olan xidmətlərin çeşidi və dəyərində yaranan fərqlərin azaldılması zəruridir.

Gəncə-Daşkəsən sənaye qovşağında infrastruktur sahələrinin ərazi təşkilinin və təminatının təhlili göstərir ki, əksər göstəricilər orta respublika kəmiyyətlərindən aşağıdır, göstərilən xidmətlər müasir tələblərdən geri qalır. Ona görə yeni xidmət obyektlərinin tikilməsi, xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması lazımdır. Bu tədbirlər yeni iş yerlərinin açılmasına, əhalinin gəlirlərinin yüksəlməsinə təsir göstərmiş olar. SQ-nın sənaye sahələrinin diversikasiyanın aparılması ölkə üzrə rəqabət qabiliyyətli imkanlarının yüksəlməsinə və davamlı iqtisadiyyatın yaranmasında həledici rol oynaya bilər.

**Gəncə şəhəri** – ölkənin qərb regionunda iqtisadi, sosial-mədəni və demoqrafik potensialın cəmləndiyi əsas mərkəzdir. Müstəqillik illərində Gəncə şəhərinin demoqrafik inkişafı üzrə əsas meyllərin təhlili göstərir ki, onların dinamikasında geriləmələr getmişdir və bu proseslər davam edir. Şəhər əhalisinin iş yerləri ilə təmin edilməsində olan problemlər, mövcud olan maşınqayırma və metallurgiya müəssisələrinin tam gücü ilə işləyə bilməməsi, iş yerlərinin əksəriyyətinin bağlanması əhalinin gəlirlərinin formalaşmasına mənfi təsir göstərmiş, xeyli azalmışdır. Bunlar isə əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuş, mənzil şəraiti ilə təminatda çətinliklər yaranmışdır.

Gəncə şəhərində təsərrüfat strukturunun təhlili göstərir ki, burada uzun illər ərzində əhəmiyyətli rol oynamış metallurgiya, kimya, yüngül və yeyinti sənayesi sahələrinə aid müəssisələrin fəaliyyətində ciddi tənəzzül baş versə də hazırda yenilənmə prosesi

baş verir. Gəncə maşınqayırma zavodunun fəaliyyətində yeni istehsal istiqamətləri yaradılır. Şəhərin iqtisadi və sosial-demoqrafik potensialından səmərəli istifadə edilməsi üçün metallurgiya, maşınqayırma və kimya, sənayesi obyektlərinin fəaliyyətini genişləndirmək, kənd təsərrüfatı məhsullarını emal edən sahələrə aid müəssisələr yaratmaq zəruridir.

## NƏTİCƏ

1. Ölkədə sənayenin sahə və ərazi strukturunun regionlar üzrə paylanmasının təhlili göstərir ki, iqtisadi rayonlarda bu sahədə ciddi uyğunsuzluqlar vardır. Neft-qaz sənayesinin aparıcı mövqeyə malik olması, regionların zəif inkişafı onların ölkənin sənaye məhsulları istehsalında bir neçə faiz pay ilə iştirakına səbəb olur. Həyata keçirilən inkişaf proqramlarına baxmayaraq hələlik bu sahədə problemlər qalır. Ona görə kənd təsərrüfatı məhsullarının emalı, yerli təbii ehtiyatlardan istifadə edilməsi üçün tədbirlər həyata keçirilməsi tələb olunur. (4,10)

2. Azərbaycanın regional mərkəz şəhəri olan Gəncənin inkişafının tarixi-coğrafi baxımdan təhlili göstərir ki, bu şəhər böyük bir dövr ərzində ölkə təsərrüfatının idarə olunmasında və ərazi-sənaye strukturunun təkmilləşdirilməsində, Gəncə-Qazax iqtisadi rayonunun inkişafında aparıcı rola malik olmuşdur. Gəncə sənaye, nəqliyyat, ticarət, elm, təhsil, mədəniyyət və digər funksiyaları daşıyan şəhər kimi, həmçinin ölkənin qərb ərazisində məhsuldar qüvvələrin cəmləndiyi əsas mərkəz rolunu oynayır. Gəncə şəhərində Gəncə-Qazax iqtisadi rayon əhalisinin 25,9% və şəhər əhalisinin 70,5% cəmlənmişdir. Gəncə şəhəri ölkənin ikinci ən böyük aqlomerasiyası olub, nüvə şəhərin əhalisini iki dəfədən çox üstələyir. Gəncə şəhəri regionda urbanizasiya ərazilərinin formalaşmasında nüvə rolu oynamış, bu səbəbdən şəhər ətrafında yerləşən rayonlarda urbanizasiya səviyyəsi yüksək olmuşdur.(2)

3. Azərbaycanda sənaye qovşaqlarının formalaşması sənayenin səmərəli ərazi təşkili üçün vacibdir və bu sahədə xüsusi əhəmiyyətə malikdir. Sənaye qovşaqları onların kompleks inkişafı şəraitində

formalaşır. Gəncə-Daşkəsən sənaye qovşağının sənayenin strukturuna daxil olan sahələrin xüsusi çəkisi davamlı olaraq dəyişir. Sənaye məhsulu və hasilat sənayesi dəyər həcminə görə pay göstəricisi iqtisadi rayon üzrə yarıdan çox olsa da, ölkə üzrə 1% olmuşdur. Emal sənayesi üzrə pay göröstəricisi İR üzrə 70% və ölkə üzrə 3% olmuş, lakin bəzi ixtisaslaşmış sənaye sahələri üzrə bu yüksək olmuşdur, metallurgiyada 17,2% və maşınqayırmada 7,7%, digər sahələrin pay göstəriciləri aşağıdır. Lakin sənaye strukturunun yenidən qurulması mühüm tədbirlərin həyata keçirilməsi üçün təbii ehtiyatlar və kənd təsərrüfatı məhsullarının emalının tam silsiləsili sənaye sikllləri yaradılması istiqamətində işlər aparılır. Formalaşma mərhələsində olan və bu potensiala malik olan şəhərlərin inkişafı regionda sənayenin davamlı inkişafı üçün mühüm tədbirlərdir.(7)

4. Müstəqillik illərində Gəncə şəhərinin demoqrafik inkişafı üzrə əsas meyillərin təhlili göstərir ki, onların dinamikasında geriləmələr getmişdir və bu proseslər davam edir. Şəhər əhalisinin iş yerləri ilə təmin edilməsində olan problemlər, mövcud olan maşınqayırma və metallurgiya müəssisələrinin tam gücü ilə işləyə bilməməsi, iş yerlərinin əksəriyyətinin bağlanması əhalinin gəlirlərinin formalaşmasına mənfi təsir göstərmiş, xeyli azalmışdır. Bunlar isə əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuş, mənzil şəraiti ilə təminatda, nikahların bağlanmasında çətinliklər yaranmışdır.(5)

5. Gəncə şəhərində təsərrüfat strukturunun təhlili göstərir ki, burada uzun illər ərzində əhəmiyyətli rol oynamış metallurgiya, kimya, yüngül və yeyinti sənayesi sahələrinə aid müəssisələrin fəaliyyətində ciddi tənəzzül baş vermişdir. Gəncə Maşınqayırma zavodunun fəaliyyəti tam deyildir, yeni istehsal və xidmət obyektləri zəif templə yaradılır. Onların özəlləşdirilməsi aparılmır. Həyata keçirilən iqtisadi islahatlar prosesində təsərrüfatın strukturunun təkmilləşdirilməsi hələlik öz müsbət nəticələrini zəif göstərir. Ona görə şəhərin iqtisadi və sosial-demoqrafik potensialından səmərəli istifadə edilməsi üçün metallurgiya, maşınqayırma və kimya, sənayesi obyektlərinin fəaliyyətini genişləndirmək, kənd təsərrüfatı məhsullarını emal edən sahələrə aid müəssisələr yaratmaq zəruridir. (1,7)

6. Gəncə-Daşkəsən sənaye qovşağında sənayenin müasir ərazi təşkilinin təhlili əsasında bu nəticəyə gəlmək olur ki, iri istehsal gücünə malik olan istehsal müəssisələrinin əksəriyyəti, əsasən də əlvan metallurgiya obyektlərinin fəaliyyəti zəifləmiş, Daşkəsən rayonunda dəmir və alunit filizlərinin hasilatı dayanmışdır. Regionda daxili istehsal hesabına enerji təminatı zəif olduğuna görə alüminiumun əridilməsi müəssisələrinin fəaliyyətində problemlər yaranır. Gəncə şəhərində Avtomobil zavodu müxtəlif təyinatlı maşınlar yığılması ilə məşğul olur. Müəssisənin davamlı fəaliyyəti üçün ixtisaslaşma sahələrinin olması zəruridir.(2,5,9)

## TƏKLİFLƏR

Şəhərlərin funksional strukturunun təkmilləşdirilmə məsələlərini araşdırıb belə nəticəyə gəlmişik ki, problemin həlli yolları üçün aşağıdakı təklif və tövsiyələr məqsədəuyğundur:

Gəncə şəhərində sənaye parklarının, klasterlərin yaradılması, istehsalın səmərəli və daha effektli yerləşdirilməsi, sosial infrastrukturun inkişaf səviyyəsinin müasir standartlara uyğun həllində dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilməsi daha faydalı olardı.

Şəhərlərdə məşğulluq səviyyəsinin təhlili və qiymətləndirilməsi, əmək bazarının vəziyyətinə uyğun tədbirlər görülməlidir. Gəncədə hər il 4 min yeni iş yerinin yaradılmasına ehtiyac var, amma min iş yeri ancaq açılır. Xüsusi ilə gənclərin və qadınların işsizliyinin aradan qaldırılması üçün tədbirlər görülməsi vacibdir.

İnkişaf proqramlarına baxmayaraq hələlik bu sahədə problemlər qalır. Ona görə kənd təsərrüfatı məhsullarının emalı, yerli təbii ehtiyatlardan istifadə edilməsi üçün tədbirlər həyata keçirilməsi tələb olunur.

Həyata keçirilən iqtisadi islahatlar prosesində təsərrüfatın strukturunun təkmilləşdirilməsi hələlik öz müsbət nəticələrini zəif göstərir. Ona görə Gəncə şəhərinin iqtisadi və sosial-demoqrafik potensialından səmərəli istifadə edilməsi üçün metallurgiya, maşınqayırma və kimya sənayesi obyektlərinin fəaliyyətini genişləndirmək, kənd təsərrüfatı məhsullarını emal edən sahələrə aid müəssisələr yaratmaq zəruridir.

Gəncə şəhəri ətrafında məişət tullantılarının emalı üçün mərkəzin yaradılması ətraf mühütün qorunmasında mühüm əhəmiyyət kəsb etmiş olardı.

Əhaliyə xidmət göstərən sahələrinin müasir tələblərə uyğun olaraq kompleks şəkildə qurulması məqsədəuyğundur.

## Dissertasiya işinin mövzusu üzrə çap olunmuş elmi işlərin siyahısı:


1. Bağırova, F.R. Azərbaycanın kənd təsərrüfatında baş verən struktur dəyişiklikləri. "Aqrar elmin inkişafı, ərzaq təhlükəsizliyi və ətraf mühitin mühafizəsində beynəlxalq əməkdaşlıq". VIII beynəlxalq elmi-praktiki konfrans. ADAU, – Gəncə, – 2016. – II cild, – s. 298-302 (Z.N.Eminov ilə birgə).
2. Bağırova, F.R. Gəncə şəhərinin təsərrüfat strukturu və onun təkmilləşməsi problemləri. // "Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali məskunlaşmasının prespektivləri və regional problemləri" mövzusunda elmi konfrans. – Bakı, – 2016, – s. 420-429.
3. Bağırova, F.R. Gəncə-Qazax iqtisadi rayonunda səhiyyə obyektlərinin ərazi təşkili və inkişaf problemləri // – Bakı: İnsan və ətraf mühit münasibətləri. Azərbaycan CC-nin əsərləri. – XX cild.– 2017. – s. 489-493. (L.M.Abasova ilə birgə).
4. Bağırova, F.R. Azərbaycanın dünya təsərrüfatına inteqrasiyası və Gəncə-Qazax iqtisadi rayonunda sosial-iqtisadi inkişaf problemləri. // Bakı Dövlət Universiteti. Ümummilli lider H.Əliyevin anadan olmasının 94-cü il dönümünə həsr olunmuş "Qlobal iqtisadi şərait və Azərbaycanın iqtisadi–coğrafi mövqeyi" mövzusunda Respublika elmi-praktik konfransının materialları. – Bakı: – 2017. – s. 137-142. (E.S.Bədəlov və X.Ş.Cəfərova ilə birgə).
5. Багирова, Ф.Р. Проблемы совершенствования хозяйственной структуры городов и ее значение в демографическом развитии. "Жаратылыстану гылымдары білімін жанартылган мазмуны жагдайында модернизациялау" Халыкаралык гылыми – практикалык конференция Казакстан

Республикасы География Институты. – Алматы: – 2017. – с. 619 – 621. (совместно с З.Н. Эминовом, Р.Р.Амановом и Э.Г.Гусейновой).

6. Bağırova, F.R. Azərbaycanda məskunlaşma areallarının formalaşmasına su hövzələrinin təsiri // “Su ehtiyatları, hidrotexniki qurğular və ətraf mühit” mövzusunda beynəlxalq elmi-praktik konfransı materialı. – Bakı, –2017. – s. 277-281 (Z.N.Eminov, Q.M.Ağabalayev və X.A.Bədəlova ilə birgə).

7. Bağırova, F.R. Gəncə-Daşkəsən sənaye qovşağının formalaşmasında aqrar-sənaye kompleksinin rolu. // “Coğrafiya və təbii resurslar”, Azərbaycan Coğrafiya Cəmiyyətinin əsərləri. – Bakı: – 2018. – № 2, – s. 81-87.

8. Bağırova, F.R. Daşkəsən rayonunda sənayenin müasir vəziyyəti. // – Bakı: “Coğrafiya və təbii resurslar” – 2024. – №1 (21), – s. 61-66

9. Багирова, Ф.Р. Экономико-географические проблемы совершенствования отраслевой структуры Гянджа-Дашкесанского промышленного узла в пределах Азербайджанской Республики. // – Удму́ртия: Вестник Удмуртского Университета. Серия “Биология. Науки о Земле”, – 2019. – s. –401-406

10. Багирова, Ф.Р. Хозяственная структура и проблемы экономико-географического развития промышленных узлов Азербайджана. // – Киів: Географія и туризм, – Випуск 57, – 2020. – s. 42-49.

Dissertasiyanın müdafiəsi __4__ __aprel__ 2025-ci il tarixində saat __11:00__-da Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.51 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı ş. Akademik Zahid Xəlilov küçəsi 23, AZ1148. Bakı Dövlət Universiteti, Əsas bina.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir: bsu.edu.az.

Avtoreferat __3__ __mart__ 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:24.02.2025

Kağızın formatı: A5

Həcm: 39113

Tiraj: 100